# Musiqi məktəbinin 30 illik yubileyi



Ulu öndər çox haqlı olaraq demişdir: "Hər bir xalq bir çox xüsusiyyətləri ilə tanınır, dünya xalqları içərisində fərqlənir. Bu, xüsusiyyətlərdən ən yüksəyi, ən dəyərlisi mədəniyyətdir".

Doğrudan da ulu rəhbərimiz öz xalqının milli-mənəvi dəyərlərinə, mədəniyyət və incəsənətinə daim xüsusi diqqət və qayğı ilə yanaşmış, Azərbaycan incəsənətinin, milli musiqisinin dünyada tanınması üçün müstəsna xidmətlər göstərmişdir. Bu baxımdan Bakı şəhərinin Günəşli qəsəbəsində fəaliyyət göstərən 36 nömrəli musiqi məktəbinə də bu qayğıdan pay düşmüşdür. Bu məktəb fəaliyyətə 1988-ci ildə başlamışdır. Fəaliyyətə başladığı gündən uşaqların estetik tərbiyəsinin formalaşmasında mühüm rol oynamışdır. Bu musiqi ocağını indi respublikamızda tanınan bir çox sənətkarlar bitirmişdir. Məsələn, respublikamızın əməkdar artisti Anar Şuşalı, müğənni Aytən Məhərrəmova, Fransada müsabiqə qalibi olmuş Mələk Qocayeva və başqaları bu qəbildəndir. Azərbaycan Respublikasının Xalq artisti, bəstəkar Oqtay Kazımi, "Humay" mükafatı laureatı Azər Dadaşov məktəbdə müəllimlik etmişlər. Bundan başqa bir çox musiqi məktəblərinin indi direktoru olan məzunlar da burada təhsil almışlar. Məsələn, 7 nömrəli musiqi məktəbinin direktoru Mehriban xanım Rüstəmova, 32 nömrəli musiqi məktəbin direktoru mərhum Xəlil Atayev, Şuşa şəhər Bülbülcan adına 1 nömrəli musiqi məktəbinin direktoru Raqif Məhərrəmov, Şuşa rayonunun Malıbəyli kənd musiqi məktəbinin direktoru Gülşən xanım Əzizova və başqalarının adını çəkmək olar.

Qeyd etməliyik ki, məktəb öz xidməti ərazisində fəaliyyət göstərən 275 saylı tam orta məktəb, 2, 3, 149 və 268 saylı uşaq yaradıcılıq mərkəzləri və bağçaları ilə yaradıcılıq əlaqələri saxlayır.

Ötən dövr ərzində məktəbin 26 nəfər məzunu müxtəlif ixtisaslar üzrə məzunu olduqları bu məktəbdə əmək fəaliyyətinə başlamışlar. Bu illər ərzində məktəbin şagirdləri tarzən H.Məmmədov adına müsabiqənin, T.Quliyevin xatirəsinə həsr olunmuş festivalın, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş müsabiqənin, X.Şuşinski adına muğam festivalının laureatları olmuşlar. Məktəbin yetirməsi Mirəli Əlizadə Prezident təqaüdçüsüdür. Bir çox müəllimlər uşaqların nailiyyətlər əldə etməsi üçün bütün imkanlardan istifadə edirlər.

Məktəbin direktoru, təcrübəli musiqiçi və təşkilatçı Oqtay Muxtarov söhbət əsnasında qeyd etdi ki, bütün bu nailiyyətlərin əldə edilməsində müəllim və şagird kollektivləri ilə yanaşı Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin böyük əməyi vardır. Bu idarənin köməkliyi ilə məktəb sahmana salınmış, musiqi alətlərinə olan ehtiyac ödənilmişdir.

Rəşid Behbudov adına Mahnı Teatrında yubileylə əlaqədar 36 nömrəli musiqi məktəbinin hesabat konserti olmuşdur. Konsertdə A.Əlizadə, P.Çaykovski, F.Əmirov, V.Morsart, S.Ələsgərov, F.Şopen, H.Vəkilov və başqa bəstəkarların əsərləri ifa olunmuşdur.

Məktəbin şagirdlərindən Nərgiz Novruzzadə, Əli Abbasov, Ağamurad Ağayev, Nadir Əzizov, N.Məhərrəmli, Nuray Zeynalova və başqalarının ifası sürəkli alqışlarla qarşılanmışdır.

Tədbirin sonunda məktəbin bir qrup müəllimi Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin fəxri fərmanı ilə təltif olunmuşlar.

**Zabit CAVADOV,**
**"Respublika".**

2018.- 12 iyun.- S.8